# Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri Türkiyə mediası tərəfindən geniş işıqlandırılıb

Azərbaycan Prezidenti İlham Əliyevin Cəbrayıl rayonuna səfəri, ictimaiyyət nümayəndələri ilə görüşü, Memorial Kompleksin və şəhərin bərpasının təməl daşını qoyması Türkiyənin aparıcı kütləvi informasiya (KİV) vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, Anadolu Agentliyi, NTV, “Haber türk, “A Haber” telekanalları, “Sabah”, “Yeni şafak” qəzetləri və digər media qurumları Azərbaycanın dövlət başçısının səfərinin mahiyyətini türkdilli ictimaiyyətə olduğu kimi təqdim ediblər. Məlumatlarda vurğulanır ki, Azərbaycan müstəqil siyasət yürüdür və öz suveren hüquqlarını qətiyyətlə müdafiə edir.

“Bölgədə sabitliyin yaranmasında Türkiyə və Rusiyanın rolu böyükdür”, “Heç kim işlərimizə qarışmasın”, “Ermənistan tərəfi Azərbaycan və Türkiyəyə qarşı torpaq iddialarından əl çəkməlidir” və digər sərlövhələrlə təqdim olunan xəbərlərdə vurğulanır ki, Prezident İlham Əliyev bir daha Azərbaycanın müstəqil siyasət yürütdüyünü və mövqeyinin dəyişməzliyini dünya ictimaiyyətinə qətiyyətli şəkildə çatdırıb.

Həmçinin diqqətə çatdırılır ki, sülh, sabitlik və inkişaf tərəfdarı olan Azərbaycan işğaldan azad edilmiş bölgələrdə kompleks quruculuq və bərpa işlərini həyata keçirir.


SABAH ≡ SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK DÜNYA SEYAHAT

**Azerbaycan Cumhurbaşkanı İlham Aliyev işgalden kurtulan bölgeleri ziyaret etti**

AA

ABONE OL Google News

**Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, Ermenistan işgalinden kurtulan bölgelere ziyarette bulundu. Aliyev, ziyareti sırasında hidroelektrik santrallerinin açılışını da gerçekleştirdi.**

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev, işgalden kurtanlmasının 1. yılında Talış köyü, Sukavuşan kasabası ve Cebrayıl şehrini ziyaret etti. Aliyev'in ziyareti dün, 3 Ekim 2020'de Ermenistan işgalinden kurtarılan Talış köyü ve Sukavuşan kasabasına gitmesiyle başladı. Terter'den Talış köyü ve Sukavuşan kasabasına giden yeni kara yolunun açılışını yapan Aliyev, Talış-Naftalan kara yolunun da temelini attı.

Azərbaycan.- 2021.-6 oktyabr.- S.8.